İşçi qüvvəsinin beynəlxalq miqrasiyası mürəkkəb və birmənalı olmayan bir proses olduğundan əmək resurslarını idxal və ixrac edən ölkələrin iqtisadi və sosial inkişafına həm müsbət, həm də mənfi təsir göstərə bilər.

Xarici işçi qüvvəsindən istifadə ***immiqrasiya ölkələri***nə əhəmiyyətli ***müsbətnəticələr*** əldə etməyə imkan verir:

- yüksək mobilliyə malik işçi qüvvəsinin idxalı nəticəsində ölkə iqtisadiyyatında struktur (sahəvi və regional) dəyişikliklər yüngülləşir;
- immiqrantlar adətən əmək resurslarının gəncləşməsinə səbəb olur, çünki adətən əhalinin daha mobil və daha əmək qabiliyyətli hissəsi miqrasiyaya cəlb edilir;
- işçilərin və mütəxəssislərin tədrisinə və ixtisaslarının artırılması üçün lazım olan vəsaitlərə qənaət edilir;
- immiqrantlar daxili bazarın həcmini genişləndirir və onların istehlak məqsədi ilə istifadə etdikləri vəsait ölkə iqtisadiyyatının inkişafına yönəldilir, onların banklardakı hesablarında toplanan vəsaitləri isə əlavə yığım mənbəyi kimi çıxış edir;
- xarici işçi qüvvəsinə çəkilən xərc yerli işçi qüvvəsinə çəkilən xərcdən aşağıdır ki, bu da firmaya əmək haqqı xərclərini aşağı salmağa imkan verir;
- immiqrantlar əmək haqqlarının bir hissəsini vətənlərinə köçürürlər ki, bu da onların işlədikləri ölkədən onların mənsub olduqları ölkəyə əmtəə ixracı üçün şərait yaradır.

Bununla yanaşı, bu proses ***immiqrasiya ölkələri*** üçün bir sıra ***problemlər*** də yaradır:

- işçi qüvvəsinin təklifinin artması və iş yerlərinin məhdudluğu səbəbindən milli əmək bazarında vəziyyət pisləşir;
- əmək bazarında işçi qüvvəsinin təklifinin artması nəticəsində milli işçi qüvvəsinin dəyərinin aşağı düşməsi baş verir;
- yerli əhali və immiqrantlar arasında münaqişələr üçün zəmin yaranır.

İmmiqrasiyanın iqtisadi effektlərini çox zaman mənfi təsvir edirlər və əsasən də iş yerlərinin azalmasını və yerli əhali arasında işsizliyin artmasını qeyd edirlər. Lakin bu problemi inkar etmədən qeyd etmək lazımdır ki, immiqrantlar özləri ilə yeni təcrübə, bilik və bacarıqlar gətirirlər. ABŞ, Kanada və Avstraliya immiqrasiya nəticəsində yaranmış ölkələrdir.

İmmiqrantlar ayrı-ayrı sahələrin iqtisadi inkişafına dinamizm gətirirlər. Nümunə kimi, İndoneziya və Malayziyada olan çinli sənaye işçilərini, Kanadada fəaliyyət göstərən Honq-Konqlu sahibkarları, Afrikada olan hind və livan